UOT 902

ƏMRAH DADAŞOV
Bakı Dövlət Universitetinin professoru
s_heydarova@mail.ru

ENEOLİT DÖVRÜ ƏKİNÇİLİYİ VƏ ƏKİNÇİLİK ALƏTLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/103/164-168

Bəşər tarixinin bütün sonrakı inkişafını müəyyən etmiş mərhələlərdən ən mühümü mənimsəyici ovçuluq-yığıcılıq iqtisadiyyatından istehsal təsərrüfatına keçid, onu əsas formaları olan əkinçiliyin və maldarlığın inkişafı və yayılması olmuşdur. Bu proseslər ən qədim tarixin yüz minillikər əvvəlki təkamülündən fərqli eneolit dövrdən xəbər verirdi və arxeoloji artefaktlarda öz əksini tapmışdır. Son onilliklərin arxeoloji tədqiqatları müəyyən etmişdir ki, mədəni-tarixi inkişafda köklü dəyişikliklər, müxtəlif səviyyədə olsa da, erkən dövrdə Qafqazda da, o cümlədən Cənubi Qafqazın,onun da tərkibində Azərbaycanın ərazisində də baş verirdi.

Açar sözlər: Qədim Qafqaz, eneolit dövrü, arxeoloji tapıntılar, torpaqbecərən ilk sümük alətlər, onların informasiya mənbəyi.

Giriş. Qədim əkinçilik təsərrüfatında vacib proseslərdən biri torpağın becərilməsi olmuşdur. Əkin sahələrinin becərilməsi qədim əkinçilik təsərrüfatının hər yeni yüksəlişində həlledici rol oynayan məhsuldar qüvvələrin inkişafından aslı olaraq müxtəlif dövrlərdə xeyli dəyişikliklərə məruz qalmışdır. Bu prosesdə həlledici amil ilk növbədə torpaqbecərmə alətlər olmuşdur ki, onların texniki inkişafı faktiki əkinçiliyin özünün inkişafı demək idi [1, 4].

Bu səbəbdən qədim torpaqbecərmə alətlərin öyrənilməsi əkinçilik təsərrüfatının tarixində, o cümlədən paleometal və tunc dövründə, prinsipial əhəmiyyət kəsb edir. Qeyd etmək doğru olardı ki, indiyədək torpaqbecərən alətlər xüsusi tədqiqat obyekti olmamışdır. Yalnız T.Ə.Bünyadov Azərbaycanın qədim əkinçilik təsərrüfatının inkişafı tarixilə məşğul olmaqla bu problem üzrə bir sıra monoqrafiya və məqalələr yazmış, qədim torpaqbecərmə alətlər və əkin alətlərinə böyük diqqət ayırmış və əkinçilik təsərrüfatının inkişafı prosesində onların rolunu müəyyən etməyə cəhd göstərmişdir [2].

Bu mövzu İ.H. Nərimanov və Q.S.İsmayılovun tədqiqatlarında nisbətən geniş işıqlandırılmışdır.

İ.H.Nərimanov "Azərbaycanda eneolit dövrü əkinçiliyi haqqında" adlı məqaləsində Azərbaycan ərazisində aşkar edilmiş qədim əkinçilik alətlərinin ilk dəfə təsnifatını vermiş, geniş şəkildə tədqiq və elmi təhlil edilmişdir [3]. Q.S.İsmayılovun "Zərgərtəpə abidəsi və Azərbaycanda toxa əkinçiliyi məsələləri" adlı əsərində son tunc dövrü toxa əkinçiliyi məsələləri işıqlandırılmış və torpaqbecərmə alətlərin inkişafı dinamikasına baxılmışdır [4, 65-73]. Lakin bu əsər də Azərbaycan ərazisindəki paleometal dövrü torpaqbecərmə və əkin alətləri haqqında tam təsəvvür yaratmır. Ona görə də, son illərin arxeoloji tədqiqat materiallarını nəzərə almaqla, biz qədim torpaqbecərmə alətlərini dövrlər üzrə səciyyələndirməyə çalışacağıq, onların texniki-texnoloji və tipoloji qiymətlərini verəcək, statistik məlumatlardan istifadə edəcəyik. Bu alətlərin bizim tərəfimizdən verilmiş təsnifatı əkinçiliyin yaranması, təşəkkülü və inkişafı tarixi ilə uyğunlaşdırılıb və başlıca olaraq eneolit və erkən tunc dövrlərini əhatə edir.

Eneolit dövrü torpaqbecərmə alətləri. Azərbaycanda torpaqbecərmə alətlərinin aşkar olunduğu ən qədim abidələr eneolit dövrünə aiddir. E.ə. VI-IV minillikləri əhatə edən bu dövrdə istər Azərbaycanda, istərsə də bütün Cənubi Qafqazda əkinçiliyə və maldarlığa əsaslanan oturaq erkən əkinçilik cəmiyyətləri artıq təşəkkül edir [5]. İqtisadiyyatın bu formasının əsasında erkən əkinçilik mədəniyyəti yaranıb inkişaf tapır və bəzi tədqiqatçılar tərəfindən Yaxın Şərqin Hassuna mədəniyyətinə sinxron hesab edilir [6, 62]. Şübhə yoxdur ki, bu ərazidə əkinçilik təsərrüfatının kökləri daha qədim dövrlə-neolitlə bağlı olmuşdur. Arxeoloji materiallar müəyyən etmişdir ki, eneolit dövründə yerli əhalinin mədəni və təsərrüfat həyatında əhəmiyyətli dəyişikliklər baş verir. Güman olunur ki, bu dövrdə Qafqazın böyük bir hissəsi o cümlədən Azərbaycan ərazisi, həm də təkcə düzənlik deyil, dağlıq və dağətəyi rayonlar yerli qəbilələr tərəfindən məskunlaşır. Onların mədəni-tarixi inkişafı prosesindəki ümumi tərəqqi burada istehsaledici əkinçilik-maldarlıq təsərrüfatının təşəkkülü və oturaq əkinçilik mədəniyyətinin

inkişafı ilə əlaqələndirilir [7].Yeni təsərrüfatın-əkinçiliyin təşəkkülü yeni əmək alətlərinin o cümlədən torpaqbecərmə alətlərinin yaradılmasına ehtiyac doğururdu. Toxa və onun yaratmış olduğu toxa əkinçiliyi belə yaranır [8, 72-73]. Toxa o qədər də mürəkkəb torpaqbecərmə aləti deyildir. Bununla bərabər, toxa özü özlüyündə əvvəlki primitiv alətlərlə müqayisədə artıq təkmilləşmiş alət idi və qədim əkinçinin əməyini xeyli yüngülləşdirirdi. Və təsadüfü deyil ki, toxa bir neçə minillik boyu əsas torpaqbecərmə aləti olmuş, dəyişən isə onun materialı və forması olmuşdur. Tədricən toxa tərkibli olub, taxta parçasına xüsusi "ülgüc"lü ağac, sümük və ya daş, ülgücün birləşdirdiyi alətə çevrilir [9, 73]. Təşəkkül edən toxa əkinçiliyi çox mürəkkəb və uzun bir iş olub təşkilatı əmək, cəmlənmiş insan qrupu tələb edirdi və ona görə də ibtidai icma cəmiyyətinin bu və ya digər inkişaf etmiş mərhələsində idi.

Bu deyilənlər Azərbaycan ərazisindəki qədim əkinçi-eneolit mədəniyyətinin daşıyıcıları üçün də məqbuldur. Bu, bölgənin eneolit dövrü abidələrində tapılmış çoxsaylı qədim toxa nümunələri ilə də təsdiqlənir.

Təqdim olunan fəsildə bu alətlər müxtəlif aspektlərdə nəzərdən keçirilir: texnoloji və təsərrüfat-istehsal nöqteyi-nəzərindən: sosioloji interpretasiya imkanları da nəzərə alınıb. Eyni zamanda hər növün konkret torpaqbecərmə alətlərinin say göstəriciləri də nəzərə alınıb ki, bu da Azərbaycan ərazisində paleometal dövrünün hər mərhələsi üçün bu alətlərin ayrı-ayrı qruplarının ənənəvliyi və vacibliyini izləməyə imkan vermişdir.

Toxaları hazırlandığı materiallara görə 3 qrupa ayırmaq olar:

1. Daş toxalar
2. Sümük toxalar
3. Dəstəli toxalar.

Onlar da öz növbəsində 2 tipə bölünür: dəstə üçün iktərəfli dəlikləri olan və kərkişəkilli. I tip daş toxaların nümunələri Naxçıvan şəhəri yaxınlığındakı I Kültəpə abidəsinin eneolit layında aşkar edilmişdir [10, 112].


Kültəpədə aşkar edilmiş toxaların sayı cəmi dörddür və hamısı sınıqdır. Onlar qranitdən və digər möhkəm daş növündən hazırlanıb, oval formalıdır və daş baltaları xatırladır. Külüng hissəsi dairəvidir, ülgücü cilataları xatırladır. Külüng hissəsi dairəvidir, ülgücü cilalanma yolu ilə itiləşdirib, küncləri bir qədər dairəvidir. Bəzi hallarda ülgüc bərabər şəkildə hər iki tərəfdən emal edilib. Digərlərindən isə alətin bir tərəfi cilalanıb, digər tərəfi isə əyrisinə itilənib.

Bu alətlərin istifadə məqsədinə gəlincə, böyük ölçülü olmalarına baxmayaraq, biz hesab edirik ki, onlardan torpağın becərilməsi üçün toxa kimi istifadə olunmuşdur. Doğrudur onlardan daha bərk materiallarlın, məsələn, ağacın emalında balta kimi də istifadə oluna bilərdi. Lakin belə olan halda, onların ülgücündə bu emalın izləri qalmalı idi. Bu məlumatlarda isə belə əlamətlər yoxdur. Bıçaqlar, həmçinin ərsinlər Muğan zonasının məskənlərində də rast gəlinən tapılılardır. Bəzi abidərələrdə sümük ərsinlər də qeydə alınmışdır: onlar daş ərsinlərdən sayca üstündür. Bu fakt onu göstərir ki, bu məskənlərin sakinləri sümükdən tez-tez istifadə etmişlər və onun emalı üsullarını yaxşı bilmişlər. Məsələn, I Kültəpənin sümük əşyaları içərisində ərsinlərə çoxlu sayda rast gəlinir.

Azərbaycanın eneolit abidələrində ikinci tip daş toxalar nisbətən daha çox sayda rast gəlinir. Onlar əsasən I Kültəpə, Baba dərviş, Şomutəpə, Töyrətəpə, Əlikömək təpəsi və d. yaşayış məskənlərində aşkar edilmişdir. Bu kərkişəkilli alətlərin bir hissəsi çay daşından, bir hissəsi daha möhkəm daş növlərindən hazırlanıb.

Kültəpə nümunələrinin ülgücləri ikitərəfli itilənib və bir qədər əyilib. Bu alətlərin ucluğunun emalı asimmetrik aparılıb-bir tərəfi əyrisinə, digər tərəfi alətə bir müstəvidə itilənib. Lakin elə alətlərə də rast gəlinir ki, onların ucları hər iki tərəfdən bərabər, bir istiqamətdə itilənib. Onların səthi də, çay daşından hazırlananları çıxmaq şərtilə, çox diqqətlə cilalanıb. Bəzi alətlərin səthi keyfiyyətsiz emal olunub. Görünür, bu daşın öz təbii formasından aslı olmuşdur. Bəzi ülgüclərdə möhkəm bir əşyaya vurulmaqdan qəlpə izləri qalmışdır. Belə alətlərin ölçüsü müxtəlifdir. Ən irisinin uzunluğu 12 sm-dən böyük deyil [11, 46].

Baba Dərviş [12, 52], Şomutəpə, Töyrətəpə [13, 63], Əlikömək təpəsi [14, 86] yaşayış məskənlərindən aşkar edilmiş yerqazan alətlər də analoji kərkişəkilli formaya malikdir. Təsvir olunan toxalar ölçü və çəkisinə görə böyük deyil. Ən iri alətin uzunluğu təxminən 10 sm-dir. Bu alətlərdə dəstəyi bərkitmək üçün mövcud izlər yoxdur. Görünür, onlar dəstəyə xüsusi muftanın köməyilə bərkidilmişlər.



Qeyd edək ki, Azərbaycan ərazisində kərkişəkilli torpaqbecərmə aləti Gəncə şəhəri yaxınlığında, Baxçagür yaxınlığında aşkar edilib. O, möhkəm daş növündən hazırlanıb və səthi cilalanıb. Ölçüsünə görə yuxarıda qeyd olunan kərkişəkilli toxalara yaxındır. Bu cür alətlər, çox güman ki, torpaqbecərmə aləti olub Ermənistanın və Gürcüstanın da erkən əkinçilik alətləri üçün səciyyəvidir. Bu alətlərə əsasən Texut [15], Sulaveris, Aruxlo [16, 18] yaşayış məskənlərində rast gəlinmişdir.

Kərkişəkilli alətlər Ön Asiyanın ən qədim yaşayış məskənlərində də geniş yayılmışdı [17, 234]. Q.Çayldın təsvirlərinə görə. Bu alətlər "toxa ucluqları" kimi istifadə olunmuşdur, qəlpə texnikası vasitəsilə hazırlanmışdır. Eneolit dövrü torpaqbecərmə alətlərinin ikinci qrupunu sümük toxalar təşkil edir. Bu dövrdə aid yaşayış məskənlərində tapılmış alətlərin içərisində onlar say etibarilə üstünlük təşkil edir. Hazırda belə alətlərin sayı 200-ü keçir. Təkcə Şomutəpə yaşayış məskənlərində bu qrupa aid 70 toxa aşkar edilib [18]. 32 sümük toxa Töyrətəpədən tapılıb [19, 211]. I Kültəpə, Babadərviş, Çalağantəpə, Qarqarlartəpəsi, İlanlıtəpə, Əliköməktəpəsi və d. eneolit abidələrində də belə alətlər aşkar edilib. Onların hazırlanmasında buynuzlu mal-qaranın əsasən boruşəkilli, kürək və sağrı sümüklərindən istifadə olunub. Boruşəkilli sümüklərdən hazırlanmış toxalar dəstək üçün lazım olan dəliyin yerləşməsindən asılı olaraq iki tipdədir: Birinci tip toxaların külüng hissəsi düz səthli epifizdir (sümüyün ucu). Dəstək üçün dəlik, bir qayda olaraq sümüyün məhz bu hissəsində şaquli açılıb. Sümüyün əks tərəfi qabaqdan çəpinə kəsilib və səliqə ilə emal olunub, ona görə də itiuclu paz formasını alıb. Bu tip toxanın uzunluğu

20 sm-dən çox deyil; İkinci tip toxalar formasına görə yuxarıda qeyd olunanlarla analogiya təşkil edir. Onların işlək hissəsi çəpinə kəsik yolu ilə itilənib, lakin dəstək üçün dəlik, birinci tip toxalardan fərqli olaraq, epifizdən aşağıda yerləşir. Belə toxaların uzunluğu 20-25 sm-ə çatır.

Kürək sümüklərindən hazırlanmış toxalar dəstəyin bərkidilməsi üslubuna görə birinci tip toxalardan seçilir. Belə toxaların alt (işçi) hissəsi qazma üçün nəzərdə tutulub və itilənib. Güman olunur ki, alətin bərkidilməsi birbaşa, külüngdə olduğu kimi, dəstəklə həyata keçirilmiş. Təsvir olunan toxalar müxtəlif ölçülüdür. Maksimal uzunluq 25 sm-dir. Qeyd etmək lazımdır ki, iri buynuzlu mal-qaranın kürək sümüklərindən hazırlanmış toxalara Ermənistanın və Gürcüstanın bütn eneolit abidələrində rast gəlinmişdir. Oxşar torpaqbecərmə alətləri İran Azərbaycanında Solduz vadisindəki Picəlitəpə yaşayış məskəninin eneolit layından da məlumdur. Onların işçi hissəsinin ucu güclü itilənmişdir.

Nəticə. Eyni zamanda belə bir fakt da məlumdur ki, Şimali Amerika hinduları sığının kürək sümüyündən toxa kimi istifadə etmişdilər. Hindu qadınları qarğıdalı əkin üçün torpağı onunla yumuşaldırdılar. Lakin bu toxalar Azərbaycan toxalarından fərqli olaraq, dəstək üçün dəliyə malik deyildilər. Üçüncü qrupa daxil olan toxalar buynuzdan hazırlanıb. Say etibarı ilə onlar çox deyil. Şomutəpə yaşayış məskənində yalnız 21 toxa buynuzundadır. Çox zaman belə toxalar üçün xammal maral buynuzu olurdu. Toxa hazırlayarkən buynuzun əsas hissəsi bəzən saxlanırdı, ya da xüsusi texniki üsulla külüngə dairəvi forma verilirdi. Alətin işçi ucu itilənirdi. Dəstək üçün dəlik işçi uca perpendikulyar yerləşdirilirdi. Buynuz toxaların da funksiyası torpaqbecərmə ilə bağlı olmuşdur.

ƏDƏBİYYAT

1. Семенов С.А. Происхождение земледелия. Л., Наука, 1974, 320 с.
2. Бунятов Т.А. Земледелие и скотоводство в Азербайджане в эпоху бронзы. Б., Изд. Академии наук Азербайджанской ССР,1957, 136 с.
3. Нариманов И.Г. О земледелии эпохи энеолита в Азербайджане// СА, 1971, №3, с.3-14.
4. Исмаилов Г.С. Памятник Зергертепе и некоторые вопросы мотыжного земледелия в Азербайджане // Изв. АН Азерб. ССР, Баку, 1989, с.138-145.
5. Нариманов И.Г. Древнейшая земледельческая культура Закавказье// Доклады и сообщения археологов СССР на VII Международном конгрессе доисториков и протоисториков в Праге. М.,1966, с.121-126.
6. Иессен А.А. Кавказ и Древний Восток в IV-III тыс. до н.э.//КСИА, вып.93, 1963, с.3-9.
7. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Б., Элм, 1974, 260 с.
8. Косвен О.М. Очерки истории первобытной культуры. М., Издательство: Изд-во АН СССР, 1957, 240 с.
9.Yenə orada.
10. Абибуллаев О. А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 315 с.
11. Абибуллаев С.А. Археологические раскопки на холме Кюль-тепе. Баку: Элм, 1959, 135 с.
12.Нариманов И.Г. Археологические исследования поселения Шомутепе в 1963 г./ Археологические исследования в Азербайджане. Баку, 1965, с.47-54.
13.Махмудов Ф.Р. Предварительные результаты археологических раскопок на Аликемектепеси. Б., 1984, Изд-во АГУ, 1984, 321 с.
14. Джафарзаде И.М. Древнейший период истории Азербайджана. Очерки древней истории Азербайджана. Баку, Акад. наук Азерб. ССР, 1956, 184 с.
15. Таросян Р.М. Раннеземледельческое поселение Техута. Ереван, 1976, 388 с.
16. Джапаридзе О.М., Джавахишвили А.И. Культура давнейшего земляедельческого населения на территории Грузии. Тбилиси, 1971, 339 с.
17. Чайлд Г. Древнейший Восток в свете новых раскопок. М., Изд-во иностранной литературы, 1956, 382 с.
18. Dyson A.A., Young T.C. The Soldus valley, İran, Pisdeli Tepe, p.20.
19. Тейлор Э. Первобытная культура. М., Госсоцэкониздат, 1939, 567 с.

АМРАХ ДАДАШОВ
профессор Бакинского Государственного Университета

ЭНЕОЛИТИЧЕСКОЕ ЗЕМЛЕДЕЛИЕ И СЕЛЬСКОХОЗЯЙСТВЕННЫЕ СРЕДСТВА

Важнейшим из этапов, определившим все дальнейшее развитие человеческой истории, был переход от эксплуататорского охотничье-собирательского хозяйства к производственному хозяйству, развитие и распространение земледелия и скотоводства, которые являются его основными формами. Эти процессы обозначили период энеолита, отличный от развития древнейшей истории сто тысяч лет назад, и отражены в археологических артефактах.

Ключевые слова: Древний Кавказ, период энеолита, археологические находки, первые костяные орудия обработки почвы, их источники информации.

AMRAKH DADASHOV
Professor of Baku State University

ENEOLITHIC AGRICULTURE AND AGRICULTURAL INSTRUMENTS

The most important stage that determined the entire further development of human history was the transition from an exploitative hunting-gathering economy to a production economy, the development and spread of agriculture and cattle breeding, which are its main forms. These processes marked the Chalcolithic period, distinct from the development of ancient history one hundred thousand years ago, and are reflected in archaeological artifacts.

Keywords: Ancient Caucasus, the Eneolithic period, archaeological finds, the first bone tools for soil cultivation, their sources of information.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 noyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.e.d. Qüdrət İsmayılzadə, t.e.d. Qabil Əliyev.